# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №12 (7483) | 12 sentyabr 2020-ci il | Şənbə | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|


## Şirvan şəhəri ərazisində sanitar-epidemioloji vəziyyətə nəzarət tədbirləri gücləndirilir

**28 avqust 2020-ci il tarixində Şirvan şəhər İcra Hakimiyyətində şəhər İcra Hakimiyyəti yanında Operativ Qərargahın növbəti iclası keçirilmişdir.**

İclası giriş sözü ilə açan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov qeyd edib ki, son günlər ərzində Şirvan şəhəri ərazisində koronavirus infeksiyasına yoluxma göstəricilərinin artması səbəbindən 28.08.2020-ci il tarixində TƏBİB-in işçi qrupu Şirvan şəhərinə ezam olunub, Şirvan şəhər Mərkəzi Xəstəxanası və şəhər Müalicə-Diaqnostika Mərkəzində bir sıra tədbirlər həyata keçirilib. Belə ki, zəruri izolyasiya və dezinfeksiya tədbirlərinin həyata keçirilməsi məqsədilə Şirvan şəhər Mərkəzi Xəstəxanası, eləcə də Şirvan şəhər Müalicə-Diaqnostika Mərkəzinə xəstə qəbulu müvəqqəti olaraq dayandırılmış və gücləndirilmiş karantin rejimi qaydaları tətbiq edilmişdir. Qeyd edilən səhiyyə müəssisələrində və Birləşmiş Uşaq Xəstəxanasının Poliklinika şöbəsində dezinfeksiya işləri aparılmış, həmin xəstəxanalarda çalışan həkim, orta tibb işçisi və kiçik tibb işçiləri müayinələrə cəlb edilmiş və zəruri test nümunələri götürülmüşdür. TƏBİB-in qərarı ilə növbəti mərhələdə test nəticələrindən asılı olmayaraq həmin xəstəxanalarda çalışan işçilərin ev təcridinə alınması nəzərdə tutulmuşdur.

İcra Hakimiyyətinin başçısı bildirib ki, hazırda koronavirus infeksiyasının yayılmasının və törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Şirvan şəhəri ərazisində zəruri və qabaqlayıcı profilaktik tədbirlərin həyata keçirilməsi davam etdirilir. Belə ki, gün ərzində şəhər Gigiyena və Epidemiologiya Mərkəzinin və şəhər Bələdiyyəsinin sanitar işçiləri tərəfindən, eyni zamanda xüsusi texnikaların köməkliyi ilə şəhər ərazisində profilaktik dezinfeksiya tədbirləri davam etdirilib. Xüsusi qoruyucu vasitələrlə və dezinfeksiyaedici məhlullarla təmin edilmiş işçi heyəti tərəfindən ictimai yerlərdə ümumi istifadə edilən səthlərdə təmizlik işləri aparılıb, şəhərin prospekt və küçələrində, park və xiyabanlarda, yaşayış binalarının giriş bloklarında, avtomobil dayanacaqlarında dezinfeksiya tədbirləri qaydalara uyğun şəkildə davam etdirilib. Dezinfeksiya tədbirlərinin ardıcıl olaraq davam etdirilməsi nəzərdə tutulub.

İclasda qeyd olunub ki, Şirvan şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə şəhər və qəsəbələr üzrə hər biri 4 nəfərdən ibarət olmaqla yaradılmış 35 mobil qrup tərəfindən yaşayış məntəqələrində əhali arasında aparılan profilaktik-maarifləndirici söhbətlər davam etdirilir, onlara yazılı təbliğat materialları təqdim edilir. Sakinlərlə maarifləndirici söhbətlər zamanı dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək olmaq, ictimai nəzarəti gücləndirmək, toplu halında yığışmamaq, qoruyucu maskalardan, dezinfeksiyaedici məhlullardan istifadə etmək, şəxsi gigiyena qaydalarına ciddi şəkildə riayət etmək, sosial məsafəni saxlamaq, özlərində virusun simptomlarını hiss edən zaman dərhal təcili tibbi yardıma müraciət etmək tövsiyə olunur. Həmçinin mobil qrup üzvləri şəhər Polis Şöbəsinin əməkdaşlarının iştirakı ilə COVID-19 infeksiyasına yoluxması təsdiq edilmiş vətəndaşların yaşadığı ərazilərdə olub, qonşuluqda yaşayan sakinlərlə tibbi-profilaktik və maarifləndirici söhbətlər aparıblar. Qonşularla aparılan söhbət zamanı onlara xüsusi karantin rejiminin qaydalarına, özünütəcrid və izolyasiya tədbirlərinə ciddi şəkildə əməl etmələri tövsiyə edilib. Tibbi maskadan istifadənin və sosial məsafənin saxlanılmasının vacibliyi qeyd edilib.

Hazırda infeksiyaya yoluxma riskini azatmaq məqsədi ilə şəhər İcra Hakimiyyətinin təşkilatçılığı əsasında bütün aidiyyatı qurumlar tərəfindən lazımi tədbirləri görülür, şəhər ərazisində sanitar-epidomoloji vəziyyət ciddi nəzarət altında saxlanılır.



## Tibbi-profilaktik, dezinfeksiya və maarifləndirmə işləri gücləndirilmiş qaydada davam etdirilir

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müdrük rəhbərliyi altında ölkəmizdə koronavirus infeksiyasına (COVİD-19) qarşı mübarizə sahəsində Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarları, tapşırıq və tələbləri ardıcıl yerinə yetirilir. Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması, infeksiyanın yarada biləcəyi fəsadların aradan qaldırılması, sosial təcridin gücləndirilməsi ilə bağlı Nazirlər Kabineti yanında Operativ Qərargahın qərar və tələbləri Şirvan şəhərində də mütəmadi icra edilir. Şirvan şəhər İcra Hakimiyyəti başçısı yanında yaradılmış Operativ Qərargah tərəfindən tərtib edilən qrafikə və tədbirlər planına uyğun olaraq ərazidə tibbi-proflaktik, dezinfeksiya və maarifləndirmə işləri gücləndirilmiş qaydada davam etdirilir.**



Bu günlərdə yenə də Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Gigiyena və Epidemiologiya Mərkəzinin və digər qrumların əməkdaşlarından ibarət, xüsusi hazırlıq keçmiş dezinfektorlarla görüşdü. Onları salamlayaraq, gördükləri işin önəmini vurğuladı. Fədakar fəaliyyətləri sayəsində koronavirusun şəhərdə yayılma sürətinin və əhatə dairəsinin genişlənməsinin qarşısının alındığını qeyd edərək təşəkkürünü bildirdi. Dezinfeksiya məhlulları və avadanlıqlarla təchiz olunmalarının vəziyyəti ilə maraqlandı. Gigiyena və Epidemiologiya Mərkəzinin baş həkimi Mehdixan Süleymanova zəruri tapşırıqlar verdi.

Sonra şəhərin mərkəzi küçə və prospektləri, istirahət parkları, məhəllələr, uşaq-əyləncə və idman qurğuları, ictimai binaların həyətləri, giriş blokları, zirzəmilər və lift kabinələri, məişət tullantı konteynerləri, sərnişindaşıma xidməti ilə məşğul olan avtobuslar və dayanacaqlar dezinfeksiya edildi. Tibbi-profilaktik işlərə, sanitar-gigiyenik vəziyyətə nəzarət gücləndirildi. Şəhərdə mobil təbliğat qruplarının üzvləri də xəstəliyin əlamətləri, sosial məsafənin gözlənilməsi, şəxsi gigiyena qaydalarına riayət edilməsi, tibbi maskalardan istifadə qaydaları, vətəndaşların xüsusi zərurət olmadan digər şəxslərlə təmasda olmamaları və hər cür ehtiyat tədbirləri görmələri barədə əhali arasında maarifləndirmə işlərini davam etdirir.

Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejimində koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması üçün Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədovun dövlət orqanlarının və dövlətə məxsus hüquqi şəxslərin rəhbərlərinə ünvanladığı 18 iyul 2020-ci il tarixli 10/763 nömrəli məktubunda qeyd edilən tapşırıqların yerinə yetirilməsi və məktuba əlavə edilən "Xüsusi karantin rejimi dövründə dövlət orqanlarında (qurumlarında) koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqəsdilə sanitariya-epidemioloji və proflaktik Tələblər"in tətbiq edilməsi sahəsində də şəhərdə preventiv tədbirlər müəyyən edilmiş, xəstəliyin əlamətləri barədə əməkdaşlar məlumatlandırılmış, onların sosial məsuliyyətli davranmaları tövsiyə edilmiş, yerlərdə məlumat xarakterli panolar qoyulmuşdur.

Şəhərdə Operativ Qəragahın üzvləri və mobil təbliğat qrupları ticarət və ictimai iaşə obyektlərinə reydləri davam etdirir. Obyekt sahiblərinə və vətəndaşlara tibbi maskadan istifadənin vacibliyi, sosial məsafənin gözlənilməsi barədə xəbərdarlıq edilir, karantin rejimini pozanlar barədə ciddi cəza tədbirlərinin görüləcəyi, xüsusi karantin rejiminin qaydalarına hər kəsin əməl etməsinin vacib olduğu vurğulanır.



## Abadlıq-quruculuq işlərinə nəzarət artırılmışdır

**Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov 19, 20 və 26 avqust 2020-ci tarixlərində aidiyyatı xidmət təşkilatlarının rəhbərləri və İcra Hakimiyyətinin məsul əməkdaşları ilə birgə şəhər ərazisində aparılan geniş miqyaslı abadlıq-quruculuq işləri ilə, Heydər Əliyev meydanında, Heydər Əliyev adına parkda, nümunəvi məhəllələrdə, park və xiyabanlarda, Uşaq-Əyləncə mərkəzlərində sakinlərin rahatlığı, istirahəti üçün salınmış yaşıllıqların, gül-çiçək sahələrinin və istirahət guşələrinin qorunub saxlanılmasının vəziyyəti ilə yerində tanış oldu. Ərazilərə baxış zamanı həlli vacib olan bir sıra nöqsan və problemlər aşkar edildi.**



İcra başçısı Əlillərin Bərpa Mərkəzinin ətrafındakı ərazilərin daim təmiz saxlanılması, əraziyə məişət tullantıları konteynerlərinin qoyulması, park və xiyabanlarda təmizliyə riayət edilməsi ilə bağlı lövhələrin vurulması, Uşaq-Əyləncə mərkəzinin fəaliyyətinin tənzimlənməsi, park və xiyabanlarda, piyada səkilərində çökən, qopan və sınan bardyur və tamet örtüklərin dəyişdirilməsi, yaşıllıqların su təminatının yaxşılaşdırılması məqsədilə yeni su xətlərinin çəkilməsi, park və xiyabanlarda işıqlanma xətlərinin yenilənməsi və digər məsələlərlə bağlı görüləcək işlər barədə aidiyyatı xidmət təşkilatlarının rəhbərlərinə zəruri tapşırıqlar verdi.

İcra Hakimiyyətinin başçısı İlqar Abbasov əraziləri gəzərkən ona yaxınlaşıb müraciət edən vətəndaşları sosial məsafə gözlənilməklə qəbul edib, dinlədi. Həmin vətəndaşların müraciətlərinin araşdırılıb, həlli istiqamətində İcra Hakimiyyətinin məsul əməkdaşlarına müvafiq tapşırıqlar verdi.

Sakinlər şəhərdə gedən abadlıq-quruculuq işlərinə, müraciətlərinə həssaslıqla yanaşıldığına görə ölkə Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirdilər.

# Koronavirus infeksiyasına qarşı mübarizə tədbirləri öz bəhrəsini verir



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident, hörmətli Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələrinə, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarına uyğun olaraq xüsusi karantin rejiminin tələblərinə, habelə sanitar epidemioloji normalara şərtsiz əməl edilməsi üçün Şirvan şəhər İcra Hakimiyyətində yaradılan Operativ Qərargahın üzvləri və mobil təbliğat qrupları tərəfindən şəhərin bütün küçə və prospektlərində, əhalinin sıx toplaşdığı yerlərdə, məhəllələrdə fərdi izahetmə-xəbərdarlıq işləri aparılır.**

Sakinlərə şəxsi gigiyena qaydalarına əməl etmək, digər şəxslərlə minimum kantaktda olmaq, insanların sıx toplaşdığı yerlərə getməmək, mütləq şəkildə tibbi maskadan istifadə etmək, ticarət, ictimai-iaşə və digər xidmət sahələrində dezinfeksiyaedici məhlullardan istifadə etmək, sosial məsafəni gözləmək, nəqliyyat vasitələrindən istifadə qaydalarına ciddi əməl etmək, infeksiyaya yoluxan insanların təcrid edilməsi və yalnız həkim nəzarətində müalicəsinin təşkili barədə tövsiyələr verilir.

3 sentyabr 2020-ci il tarixdə Şirvan şəhər İcra Hakimiyyəti yanında yaradılmış Operativ Qərargahın, mobil təbliğat qruplarının, şəhər Polis şöbəsinin və Qida Təhlükəsizliyi Agentliyinin Salyan Regional Bölməsinin əməkdaşlarının iştirakı ilə 35-i ictimai-iaşə obyekti, 102-si ticarət obyekti, 10-u bərbərxana və gözəllik salonu və 6-sı digər obyektlər olmaqla, ümumilikdə 153 müəssisədə reyd keçirilmişdir.

Reydlər zamanı sahibkarlara, alıcılara və xidmətdən istifadə edən şəxslərə karantin rejiminin qaydaları, qida təhlükəsizliyi və sanitar-epidemioloji sahədə mövcud qanunvericilik izah edilmiş, icrası məcburi göstərişlər verilmişdir. Bütün təbliğat, maarifləndirmə və dezinfeksiya işləri gücləndirilmiş iş rejimində davam etdirilir.

Şirvan şəhər İcra Hakimiyyətinin həyata keçirdiyi qabaqlayıcı zəruri tədbirlər öz bəhrəsini verir.

### TƏKLİF

# KÖHNƏ ŞƏHƏRİN PARKINA YENİ DİQQƏT LAZIMDIR

**İsmət Qayıbovun adını daşıyan Kürsahili park bu yaşayış məskəninin qədim, bəlkə də ilk parkıdır. Mənalı istirahət, maraqlı idman yarışlarının keçirildiyi yer olub. Keçmiş Əli Bayramlının, bu günkü Şirvanın adını ucalara qaldıran voleybolçular buradakı meydançada yarışardılar. Güləşçilər, boksçular üçün parkın qonşuluğunda məşq zalları var idi.**

Təxminən 10 il öncəsi-Kür çayı daşqınından sonra yararsız hala düşmüş bu park yenidən quruldu. Uşaqlar üçün əyləncə yerləri də düzəldi. Təəssüf həmin əyləncəli qurğular qorunmadı.

Bu gün də Kürsahili park əksəriyyətimizin mənalı istirahət yerlərindəndir. Xüsusilə isti yay günlərində buranın əvəzi yoxdur. Köhnəşəhərlilər, elə qonaqlar Kür çayının təmiz havasını udur, çayxanalarda mənalı dincəlirlər.

Bu parkın genişləndirilməsinə, uşaq əyləncə qurğularının yenidən bərpasına ehtiyac var. Xüsusilə Kürsahili gəzinti yeri 2-3 km uzunluğunda Su-kanal idarəsi istiqamətinə uzadılıb abadlaşdırılsa çox yaxşı olar.

Ümumyyətlə bu qədim parkın yaşıllığının çoxaldılmasına, gül-çiçəyin əkilməsinə diqqət artırılsa, hər birimizin ürəyindən olar.

**Əbil ƏHMƏDOV,**
**təqaüdçü-müəllim**


**“İŞIQ” 2020**
**ƏZİZ OXUCULAR!**

Şirvan şəhərinin ictimai-siyasi qəzeti «İŞIQ»a abunə yazılışı davam edir.
3 aylıq abunə haqqı 7 manatdır.
«İşıq»a KAPİTAL BANKIN Şirvan şəhər filialında və 6 saylı regional mətbuatı yayımı idarəsində yazılmaq olar.
H\ h- AZ39AIIB 33060019444100281141.
VÖEN-2100104521. İndeks 66858
«İşıq»a- öz qezetinizə abunə yazılmağı unutmayın!


# 2019-2020-ci dərs ilində əldə etdiyimiz nailiyyətlər...



**Bu gün Şirvan şəhərində 16 ümumtəhsil məktəbi, bir Uşaq Gənclər İnkişaf Mərkəzi fəaliyyət göstərir. 2019/2020-ci tədris ilində şəhər ümumtəhsil məktəbləri üzrə 13638 şagird təhsillə əhatə olunmuşdur. Onların təlim tərbiyəsi ilə 962 nəfər pedaqoji işçi məşğul olur.**

Şəhər Təhsil şöbəsi tərəfindən 2019/2020-ci tədris ili ərəfəsində 110 müəllim yeri Təhsil Nazirliyi tərəfindən keçirilən Müəllimlərin İşə Qəbulu müsabiqəsinə çıxarılmışdır. Onlardan yüksək bal toplayan 27 nəfəri yerdəyişmə ilə , 35 nəfəri daimi, 48 nəfəri isə müddətli müqavilə əsasında işə qəbul olunmuşlar.

Şirvan şəhər Təhsil şöbəsi müəllimlərin bilik, bacarıq və vərdişlərinin artırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirmişdir. Belə ki, Təhsil İşçilərinin Peşəkarlıq İnkişafı İnstitutunun təşkilatçılığı ilə şəhər ümumtəhsil məktəblərinin rəhbər heyəti üçün “İdarəetmənin prinsipləri”, Azərbaycan dili, tarix, fizika, kimya, biologiya və coğrafiya müəllimləri üçün “Məktəbdaxili qiymətləndirmənin təşkili metodikası”, ibtidai sinif müəllimləri üçün “Uşaq psixologiyasının inkişaf etdirilməsi” mövzusunda təlim kursları keçirilmişdir. Təlim kurslarına 200-dən artıq təhsil işçisi cəlb edilmişdir.

21 dekabr 2019-cu il tarixdə Hacıqabul şəhərində keçirilən regional müşavirədə Təhsil Nazirliyinin müvafiq əmrlərinin yerinə yetirilməsi vəziyyəti barədə Təhsil şöbəsinin hesabatı dinlənilmiş və bu sahədə görülmüş işlər müsbət qiymətləndirilmişdir. Aparılan müsbət işlərin nəticəsi olaraq Təhsil Nazirliyinin birbaşa tabeliyində olan təhsil müəssisələri, lisey və gimnaziya, rayon və şəhər ümumtəhsil məktəbləri daxil olmaqla 9-cu sinfin buraxılış imtahanlarının nəticəsinə görə Şirvan şəhəri 11 pillə irəliləmişdir.

Əməyimiz həmişə qiymətləndirilmişdir. Ölkə başçısı cənab İlham Əliyevin müvafiq sərəncamı ilə şəhər 13 nömrəli tam orta məktəbin coğrafiya müəllimi Əsmər Hacıyeva “Əməkdar müəllim” fəxri adına layiq görülmüş, şəhər 16 nömrəli tam orta məktəbin biologiya müəllimi Rəqibə Mənafova “Tərəqqi” medalı, şəhər 2 nömrəli tam orta məktəbin direktoru Əminə Əliyeva “AXCnin 100 illiyi” yubiley medalı ilə, Təhsil şöbəsinin müdiri Rövşən Allahverdiyev Təhsil Nazirliyinin “Qabaqcıl təhsil işçisi” döş nişanı, şəhər 18 nömrəli tam orta məktəbin direktoru İsmayıl Yusubov Fəxri Fərmanla təltif olunublar.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Beynəlxalq Əməkdaşlığı çərçivəsində müasir pedaqoji təcrübəni öyrənmək məqsədilə şəhər 3 nömrəli tam orta məktəbin fizika müəllimi Vasif Zeynalov noyabr-dekabr aylarında İsrailin Tel-Əviv şəhərində, şəhər 18 nömrəli tam orta məktəbin coğrafiya müəllimi Pərvanə Hətəmova və kimya müəllimi Məhəmməd Quliyev dekabr ayında Türkiyə Respublikasının İstanbul şəhərində olmuşlar.

18 nömrəli tam orta məktəbin direktoru İsmayıl Yusubov Allahverdi oğlu STEAM layihəsi çərçivəsində Türkiyə Respublikasında, 10 nömrəli tam orta məktəbin ingilis dili müəllimi Rəhimova Günay Oqtay qızı ABŞ-ın Şimali Karolina ştatında səfərdə olmuşdur.

14 dekabr 2019-cu il tarixdə şəhər 13 və 18 nömrəli məktəblərdə buraxılış imtahanlarının II mərhələsi formatında yoxlama imtahanları keçirilmişdir. Yoxlama imtahanında şəhər ümumtəhsil məktəblərinin 1033 nəfər 9-cu sinif şagirdi iştirak etmişdir. Sınaq imtahanlarının nəticəsi Təhsil Şurasında və məktəb pedaqoji şuralarında geniş müzakirə olunmuşdur.

Şəhər Təhsil şöbəsi ümumtəhsil məktəblərində təhsil alan V sinif şagirdlərinin Azərbaycan dili, riyaziyyat və xarici dil fənləri üzrə təlim keyfiyyətinin öyrənilməsi məqsədilə 25 yanvar 2020-ci il tarixində şəhər 13 və 18 nömrəli tam orta məktəblərdə test sınaq yoxlaması aparmışdır. Monitorinqdə 1081 şagird iştirak etmişdir. Monitorinqin nəticələri şəhər ümumtəhsil məktəblərində və Təhsil Şurasında geniş müzakirə olunmuşdur.



## Yeni dərs ili qarşısında



2020-ci ildə istedadlı şagirdlərin aşkara çıxarılması istiqamətində Təhsil şöbəsi fəaliyyətini davam etdirmişdir. Belə ki, şagirdlərdə bədii əsər oxumağa meyl və maraq göstərən, Azərbaycan və dünya ədəbiyyatı nümunələrini davamlı mütaliə edən VIII-XI siniflərin fərqlənən şagirdləri üçün “Ədəbiyyat biliciləri” müsabiqəsi təşkil edilmişdir. Müsabiqənin qalibi şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Zəhra Əhmədova olmuşdur.

Təhsil şöbəsi şəhər ümumtəhsil məktəblərində noyabr ayında məktəb turlarının keçirilməsini təmin etmiş və bu sahədə istedadlı şagirdlərin aşkara çıxarılmasına nail olmuşdur.Şəhər turunda 500-dən artıq şagird iştirak etmiş, onlardan 50 nəfəri I-III yerə çıxaraq yarımfinalda iştirak etmişdir. 23 fevral 2020-ci ildə şəhər 10 nömrəli tam orta məktəbdə respublika fənn olimpiadalarının yarımfinal turu keçirilmişdir.Yarımfinalın qalibi olmuş şəhər ümumtəhsil məktəblərinin 5 şagirdi respublika mərhələsində iştirak etmiş, onlardan 14 nömrəli tam orta məktəbin şagirdi Elmin İsmayılov coğrafiya fənnindən “Gümüş”, şəhər 21 nömrəli tam orta məktəbin şagirdi Türkan İsmayılzadə “Bürünc” medal qazanmışdır.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü ilə əlaqədar şəhər ümumtəhsil məktəblərinin şagirdləri arasında “Ən yaxşı təqdimat” müsabiqəsinin məktəb mərhələsi keçirilmişdir. Müsabiqənin şəhər mərhələsinin qalibi şəhər 13 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Rzayeva Nurcan Rövşən qızı respublika mərhələsində iştirak etmiş və 4-cü yer tutaraq “Təşəkkürnamə” ilə təltif edilmişdir.

Şərqdə ilk demokratik respublikanınAXC-nin yaradılmasının 102-ci ildönümü münasibətilə vətənpərvərlik mövzusunda mahnı müsabiqəsi təşkil edilmişdir.

15 iyun Milli Qurtuluş Günü münasibətilə şəhər ümumtəhsil məktəblərində təhsil alan şagirdlər arasında rəsm müsabiqəsi keçirilmişdir.

2019-2020-ci dərs ilinin ikinci yarımili ərzində Uşaq Gənclər İnkişaf Mərkəzinin dərnək üzvləri şəhər və respublika səviyyəli yarış və müsabiqələrdə uğurla iştirak etmişlər. Belə ki, respublika 3 nömrəli Uşaq Gənclər İnkişaf Mərkəzi tərəfindən təşkil edilmiş “Evdə qal, evdə yarat” müsabiqəsində Mərkəzin iki dərnək üzvü, Nihal Əlizadə və Nihan Əlizadə “Rəsm və əl işi” nominasiyasında 1-ci, bir nəfər isə, Zəhra Hüseynova 3-cü yeri, “Rəqs” nominasiyasında bir nəfər, Lalə Qurbanova 3-cü yeri tutmuşlar.

Respublika 2 nömrəli Uşaq Gənclər İnkişaf Mərkəzi tərəfindən təşkil edilmiş “Biz planetin uşaqlarıyıq” beynəlxalq rəsm müsabiqəsində fəal iştirak etdiyinə görə Uşaq Gənclər İnkişaf Mərkəzi “Təşəkkürnamə” ilə təltif edilmişdir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Operativ Qərargahı tərəfindən “Xüsusi karantin rejimi”nin tətbiqindən sonra 02 mart 2020-ci il tarixdən bütün ümumtəhsil və məktəbdənkənar təhsil müəssisələrində dərslər dayandırıldığı üçün şagirdlərlə onlayn dərslərin keçirilməsi tərəfimizdən təmin edilmişdir.

Ölkə başçısı cənab İlham Əliyevin müvafiq sərəncamına müvafiq olaraq 01.04.2020-ci il tarixdən 624 şagird yerlik 21 nömrəli tam orta məktəbin tikintisinə başlanılmışdır. Tikinti işləri “As-Təmir Tikinti” MMC tərəfindən sürətlə aparılır.

14 nömrəli tam orta məktəbdə yeni, müasir sanitar qovşağı tikilmişdir. Şəhər 1, 10, 11 və 18 nömrəli tam orta məktəblərin sanitar qovşaqları əsaslı təmir olunmuş, daimi axar su təminatı təmin edilmişdir.

2020-2021-ci tədris ilində payız-qış mövsümünü uğurla başa vurmaq üçün şəhər 1, 2, 4, 11, 12, 16 və 18 nömrəli tam orta məktəblərində təmir işləri uğurla aparılır. Şəhər 16 nömrəli tam orta məktəbin əlavə korpusuna yeni istilik xətlərinin çəkilişi yekunlaşdırılmış, qazanxanada iki yeni istilik qazanının quraşdırılması və yeni qaz xəttinin çəkilişi davam etdirilir.

Şirvan şəhər Uşaq Gənclər İnkişaf Mərkəzinin örtüyü tamamilə yenidən qurulmuş, xarici divarlarına yeni suvaq vurulmuş və sulu boya ilə rənglənmişdir.

Şəhər Təhsil şöbəsi ölkəmizdə təhsil siyasətinin uğurla həyata keçirilməsində bundan sonra da fəal iştirak edəcəkdir.

**Rövşən Allahverdiyev,**
**şəhər Təhsil şöbəsinin müdiri**



# Şirvan şəhər Veteranlar təşkilatının sədri Qayıbov Vaqif Manaf oğlu medalla təltif edildi

**Rusiya Federasiyası Prezidentinin 13 iyun 2019-cu il tarixli qərarı ilə Şirvan şəhər Veteranlar Təşkilatının sədri Qayıbov Vaqif Manaf oğlu "1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi" yubiley medalına layiq görülmüşdür.**

24 avqust 2020-ci il tarixdə Azərbaycan Respublikası Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov yubiley medalını Şirvan şəhər Veteranlar təşkilatının sədri Qayıbov Vaqif Manaf oğluna təqdim etmişdir.

Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov və şəhər ictimaiyyəti də şəhər veteranlar Təşkilatının sədri Vaqif Qayıbovu təbrik edir, ona gənclərin vətənpərvərlik tərbiyəsinə xidmət edən fəaliyyətində böyük uğurlaq arzu edir.

# VAQİF MÜƏLLİMİ TƏBRİK EDİRİK

**Böyük Vətən müharibəsinin qurtarmasından 75 ildən artıq vaxt keçir. Alman faşizmin üzərində qələbənin SSRİ tərkibində olan bir çox dövlətlərlə yanaşı Azərbaycan da təntənə ilə qeyd edib. 1941-45-ci illər ərzində Azərbaycandan müharibəyə 600 mindən çox əsgər və zabit göndərilmiş, onlardan 300 mindən çoxu geri dönməmişdir. Qələbənin qazanılmasında Bakı neftinin də mühüm əhəmiyyəti olmuşdur.**

Qələbənin 75 illiyi ilə bağlı ikinci Dünya müharibəsinin iştirakçılarına, onların dul arvadlarına, arxa cəbhədə çalışan şəxslərə birdəfəlik yardımlar edilmişdir. Bir sözlə,dövlətimiz və onun Prezidenti tərəfindən müharibə iştirakçılarına qayğı daimidir.

Bu yaxınlarda Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatında təqdimat mərasimi keçirilmişdir.

Rusiya Federasiyasının prezidenti V.Putinin məlum qərarı ilə respublikamızda da bir qrup şəxs 1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 75 illiyi yubiley medalı ilə təltif olunmuşdur. Sevindirici haldır ki, onların arasında həmyerlimiz, Şirvan şəhər Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri Vaqif Qayıbov da vardır.

Təqdimat mərasimində Rusiya Federasiyasının respublikamızdakı səfirinin nümayəndələri iştirak edirdilər. Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatının sədri generalpolkovnik Tofiq Ağahüseynov Vaqif Qayıbovu təbrik etmiş, Rusiya Federasiyasının yubileyi medalını ona təqdim edərək işlərində yeni-yeni uğurlar arzulamışdır.

Mərasimdən sonra general -polkovnik həmyerlimizi ayrıca çay süfrəsinə dəvət etmiş, onun təşkilat sədri kimi xidmətlərini qiymətləndirmiş və xatirə şəkili çəkdirmişdir.

Məlumat üçün onu da bildirək ki, Vaqif müəllimin atası Manaf Becan oğlu Qayıbov Böyük Vətən müharibəsi iştirakçısı olmuş, 3 dəfə güllə və qəlpə yarası alsa da, yenə cəbhədə döyüşünü davam etdirmişdir. Bir çox orden və medallarla təltif olunmuş, 1988-ci ildə vəfat etmişdir.



Və sonda onu da xatırlatmaq yerinə düşər ki, Vaqif müəllimin ünvanına hələ də təbriklər gəlməkdədir. Biz də bu təbriklərə qoşulub Vaqif müəllim Qayıbova uzun ömür, cansağlığı və işində uğurlar arzulayırıq.

**Musaxan HEYDƏRLİ,**
**ictimai müxbir**

# PAMBIQ YIĞIMI MÖVSÜMÜNDƏ YANĞIN TƏHLÜKƏSİZLİYİ TƏDBİRLƏRİ

**Pambıq daha çox əl əməyi tələb edən qiymətli bir bitkidir. Kənd təsərrüfatı zəhmətkeşlərinin gərgin əməyi hesabına əmələ gələn bu qiymətli sərvətin qorunması tarlalarda, pambıqqurutma meydançalarında, tədarük məntəqələrində, pambıq emalı zavodlarında yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasından çox aslıdır.**

Pambığın yanğından mühafizə olunması ilə əlaqədar birinci növbədə qeyd olunmalıdır ki, bu qiymətli bitkinin yığılması, tədarükü və emalı ilə məşğul olan bütün kənd təsərrüfatı və fermer müəssisələri, digər obyektlərin rəhbərləri yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasına məsuliyyət daşıyırlar. Kənd təsərrüfatı müəssisələrinin və digər obyektlərin rəhbərləri, fermerlər pambıq yığımı mövsümünün başlanğıçında bütün texnikanı yanğına qarşı hazırlamaqla yanaşı, işçilərin yanğına qarşı bilgilərlə təlimatlandırılması üçün cavabdeh şəxslər təyin etməlidirlər.

Pambıq yığımında, onun daşınması və emalında kənd təsərrüfatı texnikalarının traktorların, pambıqyığan maşınların, yanacaq daşıyan nəqliyyatın istismarına yalnız dövlət yanğın nəzarəti xidməti əməkdaşlarının iştirakı ilə xüsusi komissiyanın razılığı olduqdan sonra icazə verilməlidir.

Xam pambığın yığılmasına, daşınmasına və emal olunmasına cəlb olunmuş bütün kənd təsərrüfatı maşınları mütləq ilkin yanğınsöndürmə vəsaitləri ilə, qığılcım söndürənlərlə, süpürgələrlə və üzərində yanğına qarşı təbliğat mövzuzunda yazılı olan dəmir lövhələrlə təmin olunmalıdır.

Pambıq yığan maşınlar, traktorlar, nəqliyyat vasitələri məhsul yığımına cəlb edilərkən onların qidalanma, alışdırma sistemləri, sürtülən hissələri, tüstüboğucu sistemləri diqqətlə yoxlanmalıdır. Pambıqyığan və pambıq daşıyan maşınların tüstüboğucu boruları saz, kollektorların birləşmələri kip olmalı və atqı boruları saz qığılcımsöndürənlərlə təmin edilməlidir. Atqı borularının və qığılcımsöndürənlərin içərisində əmələ gələn qurum müntəzəm olaraq təmizlənməlidir. Mühərrikin qızmış hissələrinə xam pambığın düşməsinin qarçısını almaq məqsədilə örtüksüz və ya açıq örtüklü texnikanın istismar olunması yolverilməzdir.

Nasazlıq aşkar edilmiş texnikanın məhsul yığımına buraxılması qəti qadağandır.

Pambığın yanğından qorunması üçün digər yanğın təhlükəsizliyi qaydalarına da əməl olunmalıdır. Belə ki, tarlaların, xırmanların ərazisində və yaxınlığında tonqal qalanmasına, açıq oddan istifadə edilməsinə, siqaret çəkilməsinə icazə verilməməlidir.

Pambıq yığımı zamanı pambıqyığan maşının işi qurtardıqdan sonra sahədə saxlanılması yanğın təhlükəlidir.

Tarlada pambıqyığan maşınların, traktorların, digər texnikanın yanacaqla təmin edilməsi mühərriklər söndürüldükdən sonra yanacaqdolduran maşınların vasitəsi ilə həyata keçirilməlidir. Gecə vaxtı yanacaq doldurmaq qadağandır.

Pambıqla birlikdə maşında adam daşınmasına (məhsul üçün məsul şəxsdən başqa) yol verilmir. Maşınlar pambıq tayalarına 5 metrə qədər məsafə saxlamaqla yanaşa bilər. Maşın pambıq olan yerə yaxınlaşan kimi dərhal mühərrik söndürülməlidir.

Maşına yüklənmiş pambığın üstü brezentlə kip örtülməli, maşında kimyəvi odsöndürən və kürək olmalıdır.

Pambığı daşıyan maşınların döşəmələrində yarıqlar olmamalıdır.

Traktorların, avtomobillərin, pambıqyığan maşınların dayanacaq yeri, həmçinin onların təmiri, yağlanması, yanacaqla doldurulması üçün nəzərdə tutulmuş yerlər pambıqqurutma meydançalarından ən azı 50 metr aralı məsafədə olmalıdır.

Xam pambıq tayaları mütləq brezentlə örtülməlidir. Pambıqtəmizləmə zavodlarının, pambıq qəbulu və tədarükü məntəqələrinin ərazisi quru otdan, yerə dağılmış pambıqdan, zibildən daima təmizlənməlidir.

Xam pambıq yalnız gündüz qəbul edilməlidir. Qəbul zamanı pambığın tədarük məntəqəsinin və ya zavodun həyətində yerə dağılmasına yol vermək olmaz. Bu yerlərdə siqaret çəkilməsi, açıq oddan istifadə olunması qadağandır.

Yanğınsöndürmə üçün su mənbəyi olan su hovuzlarına yollar salınmalı və hovuzların yanında avtomobillərin dönə bilməsi, manevr etməsi üçün 12x12 m ölçüdə bərk örtüklü meydançalar olmalıdır.

Kənd təsərrüfatı zəhmətkeşləri, fermer təsərrüfatlarında çalışanlar pambığın yanğından qorunması üçün yanğın təhlükəsizliyi qaydalarını bilməklə, onlara riayət etməklə yanaşı, baş verən zaman nə cür hərəkət etmələrini də bilməlidirlər.

Pambıq tarlasında yanğın baş verərsə mövcud yanğınsöndürmə vəsaitlərindən, o cümlədən kimyəvi odsöndürənlərdən, ehtiyat sudan, süpürgədən və torpaqdan istifadə edərək dərhal yanğını söndürməyə başlamaq və texnikanı tarladan çıxarmaq lazımdır.

Xam pambıq tayalarında yanğın zamanı mövcud səs siqnallarından istifadə etməklə ətrafdakı insanları xəbərdar etmək, yanğın lülələrindən istifadə etməklə yanğın yerinə su vermək, torpaq atmaq, xam pambıq tayasını dağıtmaq lazımdır.İmkan olarsa islanmış brezent örtüklə xam pambığın üstü örtülməlidir.

Pambığın nəm halda maşında saxlanması, tayaya vurulması qadağandır. Unutmaq olmaz ki, nəm pambıq öz-özünə alışır.

Yanğın zamanı bütün hallarda dərhal yanğından mühafizə hissələrinə məlumat verilməlidir.

Qiymətli sərvəti-pambığı yanğından qorumaq hər bir vətəndaşın doğma işi olmalıdır.

**Mugan Regional Dövlət**
**Yanğın Nəzarəti İdarəsi**

## TƏHSİLİMİZİN AKTUAL PROBLEMLƏRİ

# MƏKTƏBDAXİLİ METODİKİ XİDMƏTİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

**Məktəbdaxili metodiki xidmət məktəbdə bütün təlim-tərbiyə sistemini vahid mərkəzdə birləşdirməklə, müəllimlərin peşə fəaliyyətinə dəstək verməklə onların pedaqoji-metodiki bacarıqlarını artırmağın, inkişaf etdirməyin ən vasib yoludur.**



Problemin aktuallığı ümumtəhsil sistemində metodiki bazanın gücləndirilməsi və metodiki xidmət sisteminin təkmilləşdirilməsi zərurətidir. Məktəblərdə fəaliyyət göstərən fənn metodbirləşmələri formal olmaqla bu vəzifələri yetərincə həyata keçirə bilmir. Buna görə də metodbirləşmələri daha səmərəli və çevik struktur bölmə olan birləşmiş fənn kafedraları ilə(BFK) əvəz etməyə ehtiyac duyulur.

Bu məqsədlərii daha səmərəli həyata keçirmək üçün məktəblərdə **"MƏKTƏBDAXİLİ İNNOVATİV METODİKİ XİDMƏT MƏRKƏZİ"** yaradılmalıdır. Yaradılacaq "MƏRKƏZ" öz fəaliyyətini **aşağıdakı struktur bölmələrdə** həyata keçirə bilər: birləşmiş fənn kafedraları, qiymətləndirmə sektoru və elmi-metodiki şurada.

Müasir müəllim öz üzərində daim çalışmalı, özünün professional səviyyəsini daim yüksəltməli, elmi-metodiki bacarıqlarını daim inkişaf etdirməlidir. Bunun üçün isə hər bir ümumtəhsil məktəbində müəllimə hərtərəfli dəstək ola biləcək mükəmməl metodiki xidmət sistemi olmalıdır. Belə bir sistemin isə ən optimal variantı haqqında söz açdığımız "MƏRKƏZ" ola bilər.

Yaratmaq istədiyimiz bu "MƏRKƏZ" ictimai əsaslarla fəaliyyət göstə bilər. Düşünürük ki, həyata keçirmək istədiyimiz bu ideya Azərbaycan Respublikasında təhsil sahəsinin inkişafında prioritet olan aktual bir problemin həllinə, əsasən, cavab verə bilər.

Ümumtəhsil məktəblərində metodiki bazanın gücləndirilməsi təmin edəcək "MƏKTƏBDAXİLİ İNNOVATİV METODİKİ XİDMƏT MƏRKƏZİ" yaratmaq ideyasını reallaşdırmaqla təhsilimizin metodik xidmət sisteminin təkmilləşdirilməsi, innovasiyalardan səmərəli istifadə etməklə təhsil idarəetməsində ən mükəmməl modellərin tətbiqini təmin etmək əsas hədəfimizdir.

Bu məqsədi reallaşdırmaq üçün müəyyən zaman çərçivəsində aşağıdakı vəzifələrin yerinə yetirilməsini nəzərdə tutmaq olar:

1.Məktəbdə "MƏKTƏBDAXİLİ İNNOVATİV METODİKİ XİDMƏT MƏRKƏZİ"nin fəaliyyətini həyata keçirmək üçün xüsusi seçilmiş otaqlar ayıraraq, onun xüsusi tərtibatını və təchizatını həyata keçirmək.

2.Yaradılacaq "MƏKTƏBDAXİLİ İNNOVATİV METODİKİ XİDMƏT MƏRKƏZİ"nin fəaliyyət əsaslarını, iş prinsiplərini müəyyənləşdirmək.

3. "MƏKTƏBDAXİLİ İNNOVATİV METODİKİ XİDMƏT MƏRKƏZİ"nin nəzdində fəaliyyət göstərəcək 5-6 müxtəlif BFK( birləşmiş fənn kafedraları) yaratmaq.

4. "MƏKTƏBDAXİLİ İNNOVATİV METODİKİ XİDMƏT MƏRKƏZİ"nin və BFK-nın Əsanamələrini, illik fəaliyyət planlarını hazırlamaq.

5. "MƏKTƏBDAXİLİ İNNOVATİV METODİKİ XİDMƏT MƏRKƏZİ"nin və BFK-nın işçi heyətinin tərkibini müəyyən etmək.

6. "MƏKTƏBDAXİLİ İNNOVATİV METODİKİ XİDMƏT MƏRKƏZİ"nin rəhbərliyi altında BFK-nın fənn müəllimlərinə metodik xidmətini təşkil etmək: bütün fənn müəllimləri üçün proqram materiallarının planlaşdırılmasını hazırlamaq və müəllimin elektron ünvanına (e-mail) göndərmək.

7. "MƏKTƏBDAXİLİ İNNOVATİV METODİKİ XİDMƏT MƏRKƏZİ"nin BFK-da fənlər üzrə kiçik və böyük summativ qiymətləndirmə nümunələri hazırlayaraq qrafik üzrə bu qiymətləndirmələri mərkəzləşmiş şəkildə həyata keçirib müəllimin nailiyyət səviyyəsinin dərəcəsini müəyyənləşdirmək, müəllimə lazımi metodiki tövsiyələr vermək.

8.Məktəbin pedaqoji heyətinə metodiki dəstək verməklə onların yaradıcı potensialını üzə çıxarmaq, onları yaradıcı tədris resurslarının hazırlanmasına, inkişafyönümlü layihələrdə fəal iştiraka yönəltmək.

9.Məktəbdə müəllimlərin elmi-pedaqoji yaradıcılığına rəhbərlik üçün **elmi-metodiki şura** yaratmaqla onları elmi yaradıcılığa istiqamətləndirmək.

"MƏRKƏZ"in struktur bölmələri aşağıdakı fəaliyyətləri həyata keçirə bilər:

1. **Birləşmiş fənn kafedraları:** məktəbdaxili metodiki xidmət üçün yetərincə yararlı olmayan metodbirləşmələr daha effektiv və faydalı olacaq Birləşmiş Fənn Kafedraları (BFK) ilə əvəz olunmalıdır. Çünki belə kafedralar formal metodbirləşmələrdən daha geniş imkanlara malik olmaqla qismən müstəqil və yaradıcı fəaliyyət göstərə bilir. Ümumilikdə beş-altı kafedranın yaradılması nəzərdə tutula bilər. "MƏRKƏZ"ə tabe olacaq bu kafedralar müəllimlərə hərtərəfli metodiki xidmət göstərməklə, müəllimlər üçün lazımi metodik dəstəyi təmin etmək imkanına malik ola bilər. Bu işin səmərəli həyata keçirilməsi üçün məktəbdaxili elektron (emaillər vasitəsi ilə) şəbəkədən istifadə olunması da məqsədəuyğundur.

2.**Qiymətləndirmə sektoru:** yaradılacaq bu sektor "MƏRKƏZ"in rəhbərliyi ilə məktəbdaxili summativ qiymətləndirmə və monitorinq üzrə yoxlama materiallarını hazırlamaqla çapını və yoxlama prosesini həyata keçirə bilər. Nəticədə müəllimlər tədris etdikləri fənlər üzrə yoxlama materialları hazırlamaq, çap etdirmək və yoxlama keçirməkdən azad edilə bilər. Prinsiipcə müəlliminin şagird nailiyyətlərini özünün tərtib etdiyi yoxlama materialları ilə məktəb rəhbərliyinin nəzarətii olmadan yoxlaması məqsədəuyğun deyil. Beləlliklə, müəllim vaxtdan daha səmərəli istifadə etməklə özünün əsas funksiyasını daha səmərəli şəkildə həyata keçirə bilmək üçün daha geniiş və əlverişli imkanlar əldə edə bilər.

3. **Elmi-metodiki şura:** "ŞURA" müxtəlif fənlərin tədrisi ilə bağlı kafedralarda aparılacaq elmi-metodiki araşdırmalara rəhbərliyi, araşdırma nəticələrinin pedaqoji mətbuatada, eləcə də ayrıca broşür şəklində kiçik tirajla çapının həyata keçirilməsini təmin edə, elmi mərkəzlərlə koordinativ əlaqləri həyata keçirə bilər.

"MƏRKƏZ" ümumilikdə pedaqoji heyətə də metodiki dəstəyi təmin edə-: müəllimlərin özünətəhsilini, informasiya təminatını və s. həyata keçirə bilər. "MƏRKƏZ" həmçinin qabaqcıl, innovativ müəllimlərin yeniliklərin tətbiqi ilə bağlı. "Açıq dərs" - "Master klas"lar təşkil edə, bu dərslər dərs prosesinə müdaxilə etmədən "MƏRKƏZ"də quraşdırılacaq televiziya sistemi vasitəsi ilə müşahidə oluna, CD disklərinə köçürülərək "MƏRKƏZ"də yaradılacaq **metotekaya** daxil edilə bilər.

Müsair dövrdə təhsilimizin də virtual məkana daxil olması məktəbdə idarəetmə və metodiki xidmətin yeni innovasiyaların köməyi ilə həyata keçirilməsini gündəmə gətirir.

Burada yeganə problem maddi-texniki təchizatdır ki, bu da dövlət dəstəyi və ya qrant layihələrii ilə reallaşa bilər.

**Zümrüd Əliyeva,**
**M.Osmanov adına**
**20 №li tam orta məktəbin**
**tədris işləri üzrə direktor müavini**

ŞİRVAN MƏTBUATI-90

# QƏZETLƏRİMİZİN REDAKTORLARI

## 3. Tapdıq Xudayev



**Tapdıq müəllim «Pambıq zərbəçisi» və «Yüksəliş uğrunda» qəzetlərinə uzun müddət redaktorluq edib. Yanılmıramsa, 1947-ci ildən 1961-ci ilə kimi. Amma qəzetlərlə əlaqəsinin «yaşı» çox olub. 1940-cı illərdən başlayaraq gənc müəllim təkcə keçmiş Əli Bayramlıda çıxan qəzetlərdə deyil, respublika mətbuatı səhifələrində də maraqlı yazılarla çıxış edib. Ciddi tənqidi yazıları ilə problemlərin, nöqsanların aradan qaldırılmasına kömək edib.**

İşgüzarlığı ilə fərqlənən T.Xudayev mətbuat vurğunu idi. Elə buna görə də bu sahədə püxtələşmiş müxbir rayon qəzetinə redaktor təyin olunmuşdu.

1961-ci ildə partiya təşkilatlarının strukturlarında dəyişikliklər aparıldı. Respublikanın rayonları üzrə ərazi istehsalat idarələri yaradıldı. Əli Bayramlıda rayon qəzeti ləğv edildi. Qonşu Sabirabad rayonunda Azərbaycan KP.MK-nın və respublika Nazirlər Sovetinin rayonlararası «Muğan» qəzeti buraxılmağa başlayır. Tapdıq müəllim müvəqqəti (1965-ci ilə kimi) qəzet redaktorluğundan ayrılmalı olur.

1965-ci il. Keçmiş Əli Bayramlıda «İŞIQ» adlı şəhər qəzeti fəaliyyətə başlayır. Tapdıq Xudayev təcrübəli qəzet işçisi kimi redaksiyaya dəvət olunur. Redaktor müavini kimi məsul iş ona tapşırılır.

Tapdıq Xudayev kimi təcrübəli jurnalistlə işləmək bu sətirlərin müəllifinə də nəsib olub. 1940-1950-ci illərin-sərt rejimin qayda-qanunları, tələbkarlığı bu kişinin qanına hopmuşdu. Özünə qarşı nə qədər tələbkar idisə çiyin yoldaşlarına qarşı da belə idi. Hazırlanan məqalələrdəki faktları və rəqəmləri dönə-dönə yoxlayırdı. Baxmayaraq ki, şəhəri, onun adamlarını, necə deyərlər beş barmağı kimi tanıyırdı, yenə də məsuliyyət hissini bir an belə azaltmazdı. Biz gənclərə dönə-dönə tövsiyə edərdi ki, imzanı qoyduğun yazının hər sətrinə, hər cümləsinə cavabdehsən. Qəzet dövlət sənədidir. Orada dərc olunan yazıda səhv etməyə haqqımız yoxdur. Əks halda oxucunun qəzetə,müxbirə inamı azalar.

Prinsipial qəzet işçisi idi. Maraqlı bir hadisəni yada salmaq istəyirəm. Adı həmişə qabaqcıllar sırasında çəkilən bir müəssisədə olarkən nöqsan və çatışmazlıqla qarşılaşır. İsti münasibətdə olduğu həmin müəssisə rəhbəri ezamiyyətdə imiş. Tapdıq müəllim rəhbəri əvəz edən məsul şəxsə iradlarını bildirib. Həmin şəxs isə, başqası deyilsiz, ianınram ki, bizdən tənqid yazmayacaqsınız. Əks halda dostunuz sizdən inciyər, deyib.

«İŞIQ» qəzetinin növbəti nömrəsində Tapdıq müəllimin «Dostun səndən inciyər» adlı tənqidi yazısı dərc olundu. Məqalə ciddi reaksiya verdi. Nöqsana yol verənlər cəzalandırıldılar.

Tapdıq müəllim təbiətən çox şən insan idi. İş öz yerində. Deyib gülməyi, zarafat etməyi çox xoşlayırdı. Əsl məclis adamı idi. Səhhətindən gileylənməzdi. Xəstəliyindən danışanları qınayardı. Dava-dərmana çox da aludə olmayın, - deyirdi. İşdən sonra bir neçə saatlıq dost-tanışla, çiyin yoldaşınla restorana və ya təbiətin qoynunda əyləşib gözəl mənzərə seyr edə-edə bir-birinin ünvanına xoş sözlərlə sağlıq desən xəstəlik sənə yaxın gəlməz,- deyirdi. Doğrudan da bayram, əlamətdar günlərdə, adi günlərdə bir yerə yığışmağımızın, «səbəbkarı»Tapdıq müəllim olardı.

Bu peşəkr jurnalist, şən, zarafatcıl insan 1994-cü ilin 22 iyulunda - Milli Mətbuat Günündə haqq dünyasına qovuşdu. Allahın ona verdiyi ömrün 80-ni bir neçə il idi ki, keçmişdi

Ruhu şad olsun!

**F.RƏHİMOV**



**Şəkildə: Tapdıq Xudayev (sağdan ikinci) gənc jurnalistlərlə. Soldan (birinci) Hacı Cəfər Cəfərov, Fəxrəddin Rəhimov, mərhum Ağaxan İsgəndərov, sonuncu mərhum Xudaverdi Gəncəliyev.**

**Şəkil 1970-ci illərin yadigarıdır.**

**Fotonu «İŞIQ»ın mərhum fotomüxbiri Kamal Kərimov lentə almışdır.**

BUNLAR MARAQLIDIR

# Yuxu-faktlar və rəqəmlərdə

**Uşaqlara 10-11 saat, yeniyetmələrə 9-10 saat, böyüklərə isə 7-8 saat yatmaq lazımdır.**

Ən az yatan yaponlardır. Onların gecə yuxusunun orta müddəti 7 saat 16 dəqiqədir. Ən çox yatan isə Argentina əhalisidir - 10 saat 15 dəqiqə.

Ən möhkəm və dərin yuxu gecə yarıdan səhər saat 4-ə kimi olan vaxt hesab edilir.

Gündüz yuxusu sutkanın bioritmini poza bilər. Odur ki, böyük adamların gündüz yatmaması məsləhətdir. Yatmaq üçün gecə vardır. Bir dəfə, lakin normal yatmaq lazımdır.

Yuxu vaxtı insanın nəbzi dəqiqədə 5-10 zərbə az vurur.

Əgər insan 30 dəqiqədən gec yuxuya gedərsə, onda gecə boyu 3 dəfədən çox oyanır, əgər 6 saatdan az yatarsa onda həkimlər ona yuxusuzluq diaqnozu qoyurlar.

Səhər oyandıqdan sonra boyunuz axşamkından ən azı 5 mm uzun olur. Yuxu zamanı onurğa dincəlir və uzanır.

Yer üzündə hər 3 nəfərdən biri yuxusunda problem olduğundan şikayət edir. Əhalinin 19%-də isə bu problem hər hansı xəstəliyin olması ilə əlaqədardır.

Yuxugörmənin 90%-də oyandıqdan 10 dəqiqə sonra yuxu əsasən unudulur.

İnsan xoruldayan zaman yuxu görmür.

Uşaq doğulduqdan sonra valideynlər ilk bir il ərzində əvvəlki illərə nisbətən 400-750 saat az yatırlar.

Yaxşı yatmaq üçün yataq dəstinin rənginin böyük rolu vardır. Hesab edilir ki, yuxu üçün ən yaxşı rəng mavidir. Eləcə də zərif-gül rəngi, yaşıl və ağ rənglər də məqsədə uyğundur. Bu rənglər insana sakitləşdirici təsir göstərir ki, bu da tez yuxuya getməyə kömək edir. Qırmızı, bənövşəyi və sarı rənglər isə, əksinə yuxuya getməyə mane olur. Bu rənglərə bir neçə saniyə belə baxaraq, işığı söndürüb yatağa girdikdən sonra da beyin bu rənglərin çalarlarını qəbul edir və bir müddət yaddaşda saxlayır.



*Topladı: Tofiq İSGƏNDƏROV*

### UZUNÖMÜRLÜLÜK-FAKTLAR VƏ RƏQƏMLƏRDƏ

Hamıdan çox yaşayan yaponlardır-orta hesabla 83,7 il. Ən az yaşayanlar isə Afrika ölkəsi olan Serra -Leonda əhalisidir - 38 il.

Rusiyada orta ömür müddəti 72,4 ildir.

Çox yaşamağın müddəti 50% həyat tərzindən,25% ətraf mühitin şəraitindən, 15% irsi (nəsillik) vəziyyətindən və 10% tibbin inkişafından asılıdır.

Alimlər aşkar ediblər ki, uzunömürlülərdə xüsusi gen vardır ki, bu da onları qeyri-normal həyat tərzinin fəsadlarından qoruyur.

Nikahda olan adamalr subaylardan çox yaşayırlar.

Beyinin qocalması prosesi 27 yaşdan sonra başlayır, beyinin fəaliyyətinin pik nöqtəsi isə 22 yaşa təsadüf edir.

Əgər SİzIn evdə pişik yaşayırsa onda Sizdə ürək xəstəliklərinin yaranması riski 40% azalacaqdır.

Gün ərzində 1 saat fiziki hərəkətlər insan ömrünü 2 il, qəzet oxuyaraq mütaliə etmək isə orta hesabla 4 il uzadır.

Keçmişdə yer üzündə yaşayan insanların ən uzun ömürlüsü 122 il 164 gün yaşayan Janna Kalman olmuşdur. Bu uzun ömürlü qadın 100 yaşına kimi çaxır içmiş və velosiped sürmüşdür. Eləcə də ömrünün sonuna kimi papiros çəkmişdir.

Uzun illərdir ki, insanın qocalması problemi ilə məşğul olan Rusiya Elmlər Akademiyasının akademiki Vladimir Skulaçyov son qənaətə gəlmişdir ki, bu günə kimi bu proesesi ləngitməyə qadir olan bir üsul və ya qüvvə məlum deyil. Yalnız bir yol vardır ki, bu da qidalanmanı azaltmaq, başqa sözlə doyunca yeməmək. O deyir ki, belə halda nəinki insan ömrü uzanır, həm də qocalma əlamətləri zəif inkişaf edir. Eləcə də yaşla əlaqədar olan bir çox xəstəliklər-ürəyin işemik xəstəliyi, katarkta, qlaukoma kimi göz xəstəlikləri, hətta xərçəng xəstəliyi insandan uzaq olur. Kobud şəkildə desək az yeməklə orqanizm az köhnəlir.

Bu mövzuda alman professoru Peter Akstin da maraqlı qeydləri var. O, sübut edir ki, insan ona verilən həyat enerjisini hara və necə sərf etməli olduğunu həll edərək öz ömür müddətini özü təyin edir.

# Rüqəyyanın rənglər dünyası

**Rüqəyya Fərziyeva Şirvan şəhər S.Hüseynov adına 1 nömrəli tam orta məktəbdə fəaliyyət göstərən xüsusi istedadlı şagirdlər liseyinin VII L sinif şagirdidir.**



Rüqəyya həm də balaca rəssam kimi də tanınır. Onun çəkdiyi rəsmlər şəhərimizdə təşkil olunan rəsm müsabiqəsi və sərgilərin də bəzəyidir.

Rüqəyyanin öz rənglər dünyası var; bu rəngli dünyanı çox sevir, çəkdiyi yeni-yeni rəsmlərinə hopdurur bu möcüzəli rəngləri Rüqəyya. Onun mövzu dairəsi də, janr seçimi də genişdir. Düşüncələrini rəsmlərinə köçürməyi, tamaşaçısı ilə rənglərin dilində danışmağı daha çox xoşlayır məktəbimizin rəssam qözü.. bağımızın azad sərgilənsin!!!..

Rəsm müsabiqələrində fəal iştirakına görə Rüqəyya Fərziyeva Şirvan Dövlət Rəsm Qalereyasının, Şirvan şəhər Heydər Əliyev mərkəzinin Fəxri Fərmanları, 9 May Qələbə günü münasibəti ilə Şirvan şəhər Gənclər və İdman İdarəsi və Şirvan şəhər Təhsil Şöbəsinin birgə təşkil etdiyi onlayn rəsm müsabiqəsində fərqləndiyinə görə isə DİPLOMla təltif olunub.

Rüqəyyaya bu yolda yeni-yeni uyurlar arzulayırıq! Qoy, onun rənglər dünyası doyma Qarabağımızın azad edilcək torpaqlarında sərgilənsin!!!..

**Rəfail Əliyev,**
**“İŞIQ” qəzetinin ictimai müxbiri, Əməkdar müəllim**



## ETIBARSIZDIR

Şirvan şəhəri, Hacıqəhrəmanlı qəsəbə sakini Aşurov Ağayusif Mədət oğluna məxsus torpağın mülkiyyətə verilməsinə dair şəhadətnaməsi (JN 350A) kod 9110048) itdiyi üçün etibarsız sayılır.

Şirvan şəhər sakini mərhum Abbasov Əli Mürvət oğluna məxsus (Şirvan şəhəri, Mahir Mirzəyev küçəsi, 53 A) mənzilə Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz Əmlakın Dövlət reyestrindən verilmiş (qeydiyyat tarixi-13.07.2018-ci il) seriya PX, 1322814№-li çıxarış itdiyi üçün etibarsız sayılır.


Baş redaktor: F.N.RƏHİMOV

*Təsisçilər:* Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və “İşıq”qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-35-60
Redaktor müavini: 6-31-35
E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 650